# 1. Qlobal siyasi iqtisadda yeni cərəyanlar

*Ronen Palan*

Sosial elmlər nadir hallarda təsdiq edər ki, cansıxıcı müzakirələrlə yaranmış fil dişi qüllələrinin ictimai obrazı müvəffəqiyyətdən başı gicəllənmiş akademik təlimlərdə özünə yer tapır.[1] Əksinə, akademik fakultələr inadkar olduqları qədər də dəlillərə əsaslanandır. Hər şey tam aydınlaşdırılmayıb: mübahisələri kənara qoysaq, ortodoksallıq həmrəylik və ya harmoniya ilə eyniləşə bilməz. Əvəzində onun gücü – qısaömürlülük və homogenlik böyük çətinliklə əldə edilir. Mary Douglasın qeyd etdiyi kimi (müxtəlif kontekstlərdə), «mədəniyyətin daxili təcrübəsi seçim və qərar vermək təcrübəsidir» (1992: 25). Ortodoksallıq mübahisə, polemika və onların aşkar qeyri-həmrəyliyi ilə «maskalanmış» xəyali razılaşmalarında təcrübə qazanır. Ortodoksallıq yalnız araşdırmaların, akademik fərziyyələrin, pul tədqiqatlarının və s. gündəliyini formalaşdırmır. Onun gücü özündə təzahür edir və eləcə də onun baxışlarının predominant formasının təbiətində əks olunur. Belə olan halda ortodoksallıq və onun baxışları hərtərəfli müdafiə olunur, ustalıqla onların arasında formalaşdırılır və təəccüblü olsa da, bu fənnin sərhədlərini möhkəmləndirir.

30 ildir və ya beynəlxalq münasibətlərin (IR) bir qolu kimi beynəlxalq siyasi iqtisadın (IPE) fövqəladəliyindən sonra (Denemark və O'Brien, 1997; Gill və Law, 1988) IPE-nin əqli irsi, sərhədləri və təbiəti mübahisə mövzusudur. Onun *suya salınmış qayığı* olan *«Beynəlxalq siyasi iqtisad»* jurnalı çoxlu sayda aparıcı tədqiqatçını IPE-nin mənasını gördükləri kimi açmağa səsləyib (Burnham, 1994; Hodgson, 1994; Krasner, 1994; Strange, 1994). Jurnal onların yardımı ilə *əsas prinsiplər* haqqında elmin cüzi arqumentli sahəsinin dərindən paylaşdırılmasının şahidliyini müdaifə edir. Bunun əvəzində IPE etiketinin özü mübahisə mövzusudur: məsələn, Gill və Law (1988: xxiii) IR haqqında qlobal arenaya üstünlük verən *qlobal siyasi iqtisad* (GPE) termininin işlədilməsinin tərəfdarıdır. Son vaxtlar hər iki termin bir-birini qarşılıqlı olaraq əvəz edir. Aşağıda qeyd edəcəyimiz kimi, ümumilikdə IPE anlayışını ona IR-in altsahəsi kimi baxanlar mənimsəyib, amma normal olaraq ona *aralıq fənni* (transdissiplin) kimi baxanlar birinci etiketə üstünlük verirlər, bu isə IR-ə nisbətən daha çox siyasi iqtisadla bağlıdır. Bu kitab iki ənənəni əhatə edir, deməli, burada hər iki etiketdən istifadə olunub. Ancaq biz müəyyənləşdirəcəyik ki, bir-birinə bağlı fənlərin sərhədləri arasındakı istiqamətlər itib. Coğrafiyaçılar sərhəd və üfüqlər arasındakı konsepsiyanı fərqləndirəcək: sərhədlər xətlərdir, hüdudlar isə zonalar. Ladis Kristof yazır:

> {Hüdudlar} kənara oriyentasiyalıdır. Onun əsas diqqəti ucqar sahələrə doğru istiqamətlənib, ora isə həm təhlükə mənbəyidir, həm də həsrətində olduğu mükafat... Başqa tərəfdən, sərhəd *daxilə oriyentasiyalıdır*. Bu, mərkəzi hakimiyyət tərəfindən yaradılıb və müdafiə olunur. Onun özünün şəxsi həyatı da, material mövcudluğu da yoxdur (Kristof, 1969: 126-128).

Bəlkə də biz GPE haqda *məhdudlaşmış* deyil, *hüdudlanmış* fənn kimi fikirləşməliyik; kənara nisbətən daxilə oriyentasiyalanan elm sahəsi; onun diqqəti

uzaq sahələrə doğru istiqamətlənib, ora isə başqa *fənlərlə* əhatə olunub. Onun xüsusi sahə kimi müəyyənləşməsi yalnız əsas fərziyyələri paylaşmaq yolu ilə deyil, bir fənnin başqası ilə birləşdiyi qeyri-zonal ərazidə baş verir.

Bu toplu yerdəyişmələrin zonal ərazi xəritəsini çəkir və burada da söhbət müasir Avropa, Amerika GPE-si və inkişaf edən GPE-nin xarici məhdudiyyətlərinin qeyd edilməsindən gedir. Bizim məqsədimiz rəqib yanaşmalar arasında hökm çıxarmaqdan ibarət deyil, sadəcə, müasir GPE-nin araşdırılması ilə bağlı sahələrdə hərtərəfliliyi saxlamaqda çətinlik çəkənləri məlumatlandırmaq və öyrətməkdir. GPE ilə səthi tanışlıq onun geniş və qismən yeni öyrənilməyə başlanılmış elm sahəsi olduğunu aşkarlayır. GPE mətnlərinin böyük çoxluğu hələ də bu sahənin 3 hissəyə böləndüyü təəssüratını yaradır və bu, *paradiqizm* (elmi nümunələr) adlanır: *realizm, liberalizm* və *strukturalizm* (strukturlaşma). Bu, müasir GPE-nin nəzərəçarpacaq dərəcəyədək irəliləyişi deməkdir. GPE cəlbedicidir və əsas cərəyanları IR fənni ilə bağlı proseslərdə sosial elmlərin itkisində özünü büruzə verir. Nəticədə müasir GPE-dəki əsas bölgü xətləri artıq IR-in əks versiyalarını (mübahisələrini) izləmir, o, siyasi iqtisadda və sosial elmlərdəki müasir debatlara və əsas mövzulara aydınlıq gətirir.

Girişdə GPE-dəki müasir debatlar götür-qoy edilir. Mən xüsusilə vurğulamaq istərdim ki, bir tərəfdən, rasionalist və metodoloji fərdi yanaşmalar, digər tərəfdən, tənqidçilər və postrasional ənənələr arasında metodoloji debatların əhəmiyyəti artmaqdadır.[2] Bu kitab iki hissəyə bölünür. Birinci hissədə GPE-nin 6 mərkəzi konsepsiyasından bəhs edilir: tənqidi yanaşmanın ciddi mövzuları hesab edilən dövlət, firma, kapital, hakimiyyət, əmək və qloballaşma. Bu 6 konsepsiya son 20 ilin ən böyük müzakirə və innovasiyalarının müzakirə mövzusu olub. İkinci hissədə isə müəyyən sayda nəzəriyyələr, GPE-nin fəaliyyət mərkəzindəki cari fəaliyyətlər verilib. Bu nəzəriyyələr və yanaşmalar 3 böyük ənənə – rasionalizm, marksizm və institusionalizm üzərində qurulub.

## Dövlət və firma xaricində

Ənənəvi olaraq GPE müasir dünyanın iki mərkəzi institutu və onlar arasındakı əlaqələrlə məşğul olub. Bunlar dövlət və MNEs-dir ki, bəzən dövlət və bazar kimi təsvir olunur. Məşhur Gilpin IPE-ni aşağıdakı şərtlərlə müəyyənləşdirib:

> Müasir dünyada *dövlət* və *bazarın* paralel yaranması və interaksiyası (qarşılıqlı əlaqəsi) *siyasi iqtisadı* yaradır... Dövlət olmadığı halda qiymət mexanizmi və bazar təsirləri iqtisadi fəaliyyətin qazancını müəyyən edə bilərdi; buna iqtisadçının xalis dünyası demək olardı. Bazarın olmadığı halda isə dövlət və onun ekvivalenti iqtisadi resurslar toplaya bilərdi; bu isə siyasət alimlərinin xalis dünyası deməkdir (1987: 8).[3]

Gilpinin yanaşmasında əks olunan fərziyyələrə görə, siyasət və iqtisadiyyat ayrı-ayrı sahələrdir, bununla belə, paralel sahələrdir və kifayət qədər qeyri-müəyyən tərəfləri var. IPE–nin gətirmiş olduğu dəyişikliklər siyasət və iqtisadiyyat arasındakı ənənəvi fərqləri zəiflədib və həqiqətən inteqrasiya olunmuş siyasi iqtisad yanaşmasını ortaya qoyub. Bu nəzəri dəyişikliklər özünəməxsus olmasa da, GPE siyasi iqtisad sahəsinə nüfuz edib və sonradan müzakirə ediləcək cari nəzəri yanaşmalara doğru istiqamətlənib.

GPE ilə bağlı əsas elmi təhlillərin dövlətlər, bazarlar və onların əlaqəsinin dominantlığı ilə bağlı olmasına baxmayaraq, bu cütlüyün mərkəzi ixtilafı son on ildə və ya daha artıq müddətdə GPE-nin tərkibinin əhəmiyyətli dərəcədə genişlənməsiylə bağlıdır. Dövlətlər və bazarlar arasındakı münasibətlərdən başlayan dəyişikliklər iqtisadi qloballaşma yolu ilə təbiətin yenidən strukturlaşmasını şərtləndirir. Eyni zamanda, çətin ki, GPE siyasi elmlər, iqtisadiyyat, insan coğrafiyası, biznes elmləri və sosiologiya kimi sahələrdə aparılan əsas müzakirələrdən kənarda qala bilsin.

Cerny (2-ci fəsil), Phillips (3-cü fəsil) və McMichaelın (7-ci fəsil) yazdığı fəsillərin hər biri bizi qloballaşma, multinasional müəssisələr (MNEs) və dövlət haqqında son araşdırmaların təzə və müfəssəl izahı ilə tanış edir. II hissədə nəzəri ənənələr barəsində qeyri-müəyyənliklər təsvir edilir. Birlikdə bu fəsillər dramatik yolla dəyişən dünyanı olduqca əhəmiyyətli dəlillə təmin edir. Cerny və McMichael göstərmişlər ki, GPE-də prosesləri təhlil edən əksər müşahidəçilər qloballaşma ilə bağlı müzakirələrə qarşı nəticəsiz dövlət ideyasından imtina etmişlər. Sözügedən iki fəsildə xüsusi olaraq dövlət dəyişikliklərinin himayəsi altında olan, mürəkkəb yolla idarə edilən siyasətin yeni formaları və hakimiyyətin varlığından danışılır. Müxtəlif nəzəri ənənələr haqqında qeydlərə baxmayaraq, onların arqumentləri neogramscian araşdırmalardakı son inkişafla (2-ci fəsildə Overbeek müzakirəyə çıxarıb) və xüsusilə Stephen Gillin *yeni konstitusionalizm* adlandırdığı yeni qlobal fənnin fövqəladəliyi ilə uzlaşır (Gill, 1995a, 1995b).

Mən burada xüsusi olaraq MNEs haqqındakı fəsil barəsində qeydlər etmək istərdim, çünki bu sahədə baş verən dramatik inkişafa GPE və IR tərəfindən diqqət yetirilməyib (Phillips, 3-cü fəsil). Richard Phillips göstərir ki, MNEs qlobal bazarlarda, fundamental olaraq onların məkan və iqtisadi yerləşmə, alyanslar və əmlaklarla bağlı konsepsiyalarının yenidən dəyişdiyi yerlərdə fəaliyyət göstərir. Daha doğrusu, kapital iqtisadiyyatının ənənəvi obrazı göstərir ki, sanki o, müstəqil və amansız rəqib korporasiyaların maksimum mənfəət axtarışından ibarətdir. Onun *alyans kapitalizmində dəyişikliklər* adlandırılan müxtəlif formaları təkcə bazarın ortodoksal konsepsiyasından deyil, dövlət sərhədlərinin funksiya və təbiətinin ənənəvi konsepsiyasından da ibarətdir. Bu dəyişikliklərin nəticəsi rəqabətqabiliyyətli kapitalizm formalarının yenidən formalaşmasıdır. Nitzan və Bichlerin (5-ci fəsildə) göstərdiyi kimi, bu, qlobal idarəetmənin yeni formalarını yaradır. Firma və firmadaxili əlaqələr sahəsində gec əldə edilən inkişaflar institusional iqtisadiyyata, son on ildə bu sahədəki olduqca mühüm nəzəri yanaşmalara marağı yenidən artırıb. İnstitusional iqtisadiyyatın GPE-yə təsirini Nitzan və Bichler (5-ci fəsil), Spruyt (9-cu fəsil), Dunford (10-cu fəsil) və Leander (12-ci fəsil) müzakirəyə çıxarıb.

Bununla belə, GPE dövlət, bazar və qloballaşmanı araşdırır. Güman edildiyi kimi, dövlətlər, firmalar (bazar) və yığımın təbiəti (qloballaşma) arasındakı əlaqələr sadəcə empirik məna daşımır, interpretasiyanın mühüm məsələlərini də inkişaf etdirir. Biz müzakirələrdəki hər mənada üç əsas məsələni qarşı-qarşıya qoyuruq. Bunlar hakimiyyət, kapital və əməyin təbiətidir. Hakimiyyət məsələsi birbaşa insan amili ilə bağlıdır və ənənəvi olaraq siyasət və dövlətlə assosiasiya olunur (Guzzini, 4-cü fəsil). Həmçinin, Nitzan və Bichlerin göstərdiyi kimi, kapitalın və müasir dünyanın mərkəzi strukturlaşmış agentliklərinin nəbzindəki xətlər ənənəvi olaraq iqtisadiyyat sahəsindən və *bazardan* keçir. Beləliklə, iki

fəsildə Guzzini, Nitzan və Bichler göstəriblər ki, bir tərəfdən, obyektiv siyasi iqtisadi təhlil formalarının əhəmiyyətliliyi fonunda hakimiyyət və kapitalın meydana gəldiyi dövlət və bazarda dövlət/hakimiyyət və bazar/kapital anlayışlarının ikitərəfliliyi davamlı deyil, digər tərəfdən, bu fəsildə kitabdakı başqa fəsillərə nisbətən onlar daha çox GPE-nin uğursuzluq açarında yerləşiblər. Bu isə onun nəzəriyyəsinin özünəməxsus qolunu ümumiləşdirir. Hakimiyyət GPE-nin mübahisəsiz mərkəzi konsepsiyasıdır. Nitzan və Bichlerin göstərdiyi kimi, hakimiyyət, sadəcə, dövlət və ya tarazılığın siyasi tərəfi ilə bağlı deyil, həmçinin hakimiyyət münasibətləri iqtisadi məsələlər üçün olduqca əhəmiyyətlidir. Bundan başqa, Guzzini qeyd edir ki, hakimiyyət konsepsiyası hələ də ikimənalıdır. Siyasi iqtisadın başqa qollarına nisbətən GPE hakimiyyət üzərində mərkəzləşib və hələ də aydın deyil ki, hakimiyyət anlayışı necə başa düşülməlidir.

Bəzi abstraktlara baxmayaraq, hakimiyyət konsepsiyası GPE tərəfindən inkişaf etdirilən əksər vacib məsələlərlə birbaşa bağlıdır. Bunlar isə cari transformasiyalar, həyat və *real əhalinin* məşğulluğuna (bu, tez-tez hamının daha çox diqqətindən yayınan *əmək* kateqoriyası ilə təqdim edilir) dair yanaşmalar arasındakı əlaqələrlə sıx bağlıdır (O'Brien, 6-cı fəsil). O'Brien və Lingin (16-cı fəsil) irəli sürdüyü kimi, əmək anlamı IPE-nin aparıcı yanaşmalarında onun yoxluğu üçün daha yaxşı *gizlədilmiş* altqatdır. Heç də təsadüfi deyil ki, həm Fransız Tənzimləmə Məktəbi (10-cu fəsil) və neogramscianlar (11-ci fəsil) əməyin müasir izahının təhlilini orijinal şəkildə inkişaf etdirmişlər.

Dövlət, MNEs, kapital, hakimiyyət, əmək və qloballaşma kimi təsnif olunmuş 6 kateqoriya aşağıdakılarla birbaşa bağlıdır: onlar bir-birlərini məlumatlandırır və müasir GPE tərəfindən tutulmuş intellektual ərazidə doqma olmayan anlayışları müəyyən edir. Bu kateqoriyalardan heç biri eksklüziv olaraq GPE ilə bağlı deyil, ancaq öz təbiətləri ilə GPE-də xarakterizə edilən fəndaxili qısa araşdırmaları stimullaşdırırlar.

## Siyasi iqtisadın dönüşü

Kitabın I hissəsindəki müzakirələr əsasən əvvəldə qeyd etdiyimiz 6 kateqoriya ətrafında aparılıb, II hissədə isə nəzəri yenidənqurmalar üçün əsaslandırmanın hazırlanması və siyasi iqtisad ənənəsinə dönüş müzakirə edilib. Amma bu, heç də başqa ortodoksallığın yenidən dirçəldilməsi üçün siqnal demək deyil. Normal olaraq ortodoksallıq qısa şərtlərdə özünü büruzə verir və bu da *hakim cərəyanda* nəyin hansı zaman müddətində verdiyini göstərir. Bununla belə, elmin bu sahəsi heç də onun baş xətlərindən təşkil edilməyib. Əlavə olaraq burada xüsusi formalar var, amma qeyd edilməlidir ki, onların sərhədlərini müəyyənləşdirmək olduqca çətindir. Onların hər biri verilmiş fənlər daxilində heç də tamam aydın şəkildə qəbul edilmir. Bu kitabda bir daha təsdiq edilir ki, GPE-dəki bəzi əhəmiyyətli dəyişikliklər son illər baş verib.

IPE-də əski ortodoksallıq olduqca çox idi və IR bunları üç düşüncə məktəbi – realizm, plüralizm (liberalizm) və strukturalizm arasında bölüşdürüb bir elm sahəsi kimi ümumiləşdirərək təsvir edib. Burada üzə çıxan ilk çətinlik onun sınağı ilə bağlıdır. Ondan başlayaq ki, *realizm* və ya *siyasi realizm* IR fənnində dominantlıq edib və bəziləri razılaşır ki, hələ də dominantlığını sürdürməkdədir. Bu, hüquqları öz istəklərinə uyğun dövlətlərə verilən nəzəriyyələr üzərində

proqnozların verilməsidir. Burada söhbət özünün mənəvi amillərini nəzərə almayaraq «eqoist» maraqlarını gerçəkləşdirənlərdən gedir. Bütün dövlətlər öz maraqlarını gerçəkləşdirməyə çalışandan bəri beynəlxalq siyasətdə yalnız orta amillər gücə sahibdir. Bu əsasda nəzəriyyə beynəlxalq sistemdə hakimiyyət bölgüsü, həmçinin nəzəriyyənin sistemin əsas xarakterlərini müəyyən etməsi ilə bağlı hipotezlər irəli sürür. Bura isə beynəlxalq ticarət sistemi, yəni IPE-nin bir hissəsi kimi təsvir edilən fikirlər daxildir. Deməli, məsələn, iddia olunur ki, hegemonçuluq sistemin kifayət qədər sabitliyinə yardım edir və bu da beynəlxalq ticarət sisteminin inkişafına imkan yaradır (bax: Guzzini, 4-cü fəsil).

Realistlər adətən öz ideyaları ilə Machiavellini (bu kəlmə xüsusi olaraq arsızlıq[4] mənasını daşıyır) və Hobbesi izləyirlər, bu isə onların öz beynəlxalq sistemlərini Hobbesin dövlətin təbiəti ilə bağlı konsepsiyasına qismən yaxın sistem kimi təsvir etməsi deməkdir. Ancaq aydındır ki, siyasi realizm nəzəriyyəsi Boteronun antireformasiya psixoloji fəaliyyətini izləyir. Botero 19-cu əsr alman ədiblərinin, məsələn, Treitschkenin baxışları və əsərlərinə əsaslanaraq *dövlətin mənası* terminini ilk dəfə işlətmişdi. Bununla yanaşı, Botero alman liberal məktəbinin nümayəndələrinin, xüsusilə də Friedrich Meineckenin[5] əsərləri əsasında araşdırma apararaq *siyasi realizm* terminini elmə gətirib.

Realizmin saxta tarixi, çox güman ki, IPE-də liberalizmlə realizm arasındakı fərqləri aşkarlamağın niyə çətin olduğunu izah etmək üçün müəyyən üsullardan istifadə etməyi göstərə bilər. Liberallar və ya plüralistlər ümumi olaraq kimin dövləti yaxın vahid varlıq kimi təsvir etmək istəmədiyini və əksinə, dövləti cəmiyyətin hədəflərinə çatmaq üçün kimin vasitə hesab etdiyini başa düşürlər. Nəzəri olaraq rasional seçimlərin yüksək səviyyəli olmasına söykənərək sistemin optimistliyini normativ şəkildə nəzərə aldıqca dövlət aqreqatlaşdırılmır (təmərküzləşmir). Maraqlıdır ki, IR-də liberalizmin realizmin fərqli elmi nümunəsi – *paradiqizmi* kimi təsvir edilməsinə baxmayaraq, belə görünür ki, IR-də liberallıq analyışı nəticələrin eyni şəbəkəsinə, başqa cür desək, beynəlxalq realizmə doğru istiqamətlənib. Məsələn, Krasner (1982) və Snidal (1985a) başqalarından fərqli olaraq göstərirlər ki, hegemon sabitlik nəzəriyyəsinin kökləri var və onlar realistik nəzəriyyəyə söykənməyib, əksinə, fakt budur ki, həmin köklər siyasi iqtisad tərəfindən idarə edilən ictimai seçim və ya neoklassik nəzəriyyələrə əsaslanıb. Başqa bir fakt ondan ibarətdir ki, realizm və liberalizm arasındakı birləşmə 1970-ci illərin əvvəllərində Keohane və Nye (1971) araşdırmaları ilə başlayıb. IR-in yeni yanaşmalarının inkişaf etdirilməsinə olan cəhdlər 1980-ci illərdə realizmə tərəf qayıdıb (Keohane, 1984). Eyni zamanda, realistlər ciddi şəkildə orta rasional seçim nəzəriyyəsindən istifadədə maraqlarını müəyyən etmək məsələsi ilə maraqlanırlar. Bu isə realizmlə liberalizm arasındakı növbəti fərqlərin intervalının qaranlıqlaşması deməkdir. Eyni zamanda, Robert Gilpin (1987) realist nəzəriyyə ilə neoklassik iqtisadiyyatın birləşdirilməsinin tərəfdarı olub. 8-ci və 9-cu fəsillərdə müzakirə edildiyi kimi, bu, hər iki tərəf – realistlər və liberalistlər üçün rasional metodologiyanın daha ciddi alətlərinin qəbul edilməsi üçün yeganə məntiqi yol idi. Nəticədə realizm və neoliberalizmi fərqləndirən xətləri müəyyən etməyin çətinliyi ciddi şəkildə artıb.

Strukturlaşma hələ də xüsusilə dünya yanaşmalar sistemi kimi tanınan neomarksist məktəbin təqdimedicisidir. Dünya sistemlərinə yanaşma proqnozlarının heç də hamısı plüralist dövlət sistemi konsepsiyasını tamamilə

proqnozlaşdırmayan xarici ətraf mühitin siyasi iqtisadi izahlarının inkişafı üçün xüsusilə əhəmiyyətli hesab edilmir. Başqa tərəfdən, dünya sistemləri nəzəriyyəsi kapitalist iqtisadiyyatını dövlət sisteminin ikinci dərəcəli rola malik olduğu ümumi sistem kimi konsepsiyalaşdırıb (Wallerstein, 1974). Ancaq marksist ədəbiyyatın ictimai sistemdən kapitalist sisteminə doğru konseptual dəyişiklikləri qiymətləndirdiyi müddətdə dünya sistemi tarixinin struktur və paradoksal təhlili daha çox nüanslı yanaşmalara üstünlük verib.

Bu inkişaflar siyasi iqtisadda IR-in özünün kökünə qayıtması zamanı GPE-nin yenidənqurulmasına nail olmağın asan olmaması qənaətinin yaranması ilə nəticələnib. Bununla belə, siyasi iqtisadın dönüşü heç də problemsiz deyil. Siyasi iqtisad xüsusi olaraq ən azı üç fikir məktəbi arasında bölüşdürülüb. Onlardan hər biri siyası iqtisadın 19-cu əsrin sonlarında iqtisadiyyat, siyasi elmlər və sosiologiya kimi (müasir fənlərin fövqəladəliyinin artdığı dövrlərdə) travmatik parçalanmasına xidmət edib. Qeyd etmək lazımdır ki, köhnə siyasi iqtisad ənənəsinin son qalıqları GPE yanaşmalarının təzələnməsinin əsasıdır.

Siyasi iqtisad qalıqlarının birincisi tətbiqi fikirlərin bu günlərədək utilitarian ənənəsinə xidmət edir və bunu da Hodgson (1994) neoklassik iqtisadiyyatın imperializmi adlandırıb. Burada neoklassik konsepsiya və metodlardan, məsələn, marjinal faydalılıq, optimallaşdırma, tarazlıq və rasional seçim, beynəlxalq siyasətin həyata keçirilməsinin qətiliyini izah etmək üçün əhəmiyyətli dərəcədə istifadə edilir. Nəticədə çox təsirli fərdi metodoloji əsası olan IPE fikir məktəbləri son illər inkişaf edib və bu inkişaf xüsusilə Amerikada müşahidə olunub. Buraya strateji qarşılıqlı təsir və IPE-nin oyun nəzəri yanaşmaları (Carlson, 8-ci fəsil) və neoinstitusional transaksiya (əməliyyat, saziş), məxaric iqtisadiyyatı nəzəriyyələri daxildir (Spruyt, 9-cu fəsil və Cerny, 2-ci fəsil). Bu qol birbaşa dövlətdaxili arena və siyasəti həyata keçirənlərlə maraqlanır və hələ də özünü *IPE* adlandırılan elm sahəsinin daxilində fəaliyyət göstərən cərəyan kimi təqdim edir.

Alternativ ənənələr – buraya marksist iqtisadiyyatını, təkamül institusionalizmi və hermenkatiksləri[6] aid etmək olar – coğrafiya, biznes elmləri, iqtisad tarixi, təşkilati və sosioloji nəzəriyyələr kimi akademik departamentlərdə saxlanılır. Başqa tərəfdən, «tənzimlənən bazar mübadilə qaydalarının ideallaşdırılmasının sadə şəbəkəsinin yoxlanmasına bilavasitə yardım edən» (Eggertson, 1990: 4) əsas cərəyan iqtisadiyyatının tənqidi qanadının GPE kimi təqdiminə cəhd edilir və bilavasitə əmək və institusionalizm – məsələn, ailə, firma, bazar, dövlət və hər şeydən öncə, hakimiyyət məsələsi ilə əlaqədardır. Onların arasında bu toplu xüsusi olaraq neogramscian/transnasional sinfi alyans yanaşmalarında GPE-nin paylaşdırılmasına (Overbeek, 11-ci fəsil) və Fransız Tənzimləmə Məktəbi ilə neoschumpeterian yanaşmalara üstünlük verir (Dunford, 10-cu fəsil). Bunların ümumi tərəfləri isə hər ikisinin dövlət/cəmiyyət əlaqələri, qlobal sifarişin formalaşması və transnasional hegemonluq kimi mövzularla maraqlanması ilə bağlıdır. Veblen, Commons və Polanyinın (Phillips, 3-cü fəsil, Nitzan və Bichler, 5-ci fəsil və Leander, 12-ci fəsil) təkamül institusionalizminə və GPE-də böyük maraq cəlb etməyə başlayan tarixi sosiologiyaya (Leander, 12-ci fəsil, 14-cü fəsil) marağı yüksəlib. Marksist təkamul institusionalizm və sosioloji ənənələr elminin onlarla bağlı sahəsinin *GPE* kimi tanınmasına daha çox meyllidir. Gill və Law (1988: xxiii) bunu beynəlxalq qloballaşma kimi təklif edir.

Siyasi iqtisadın psixoloji köklərinə marağın artması paralel olaraq tematik sərhədlər məsələsini gündəmə gətirib. Michel Foucault bir daha vurğulayır ki, köhnə sosial demokratik şüar olan «bilik böyük qüvvədir» şüarı nağıldan başqa bir şey deyil. Foucault həssaslığı (əlbəttə, Foucault presedentində) rasional mübahisələrin, həqiqətin izahatının ənənəvi modelini dəyişdirir və onu iyerarxiyalı edərək praktikanı müstəsna hala gətirir. Əlavə olaraq o, yalnız sinfi iyerarxiyalarda deyil, kolonial, deməli, rasist, cinsi iyerarxiyalarda da dəyişiklik yaradır. Nəticədə ənənəvi marksizmin sinfi əsaslı istismarçı siyasətinin özünəməxsusluğunun rəngarəngliyi bəzən istismarçı siyasətin aydın formaları (o cümlədən, buraya müxtəlif hakimiyyət münasibətlərinin təsiri kimi təsvir edilən diskursiv texnologiyalar daxildir) ilə seçilən imkanlar yaradır (Pieterse, 13-cü fəsil, Palan, 14-cü fəsil, Ling, 16-cı fəsil). Murphy və Tooze (1991) GPE-nin daha eklektik *postrasional* qanadı kimi xarakterizə etdiyi *yeni* IPE hakimiyyətini müdafiə edir, istismar və hegemonluq müxtəlif formalara keçir və onların heç də hamısının iqtisadi təbiəti təmiz *materialist* deyil.

Həqiqətən də GPE iqtisadi və/və ya materialist mənafelərin hər bir hadisənin, cərəyanın və qlobal arenada (eləcə də beynəlxalq aləmdə) baş verən proseslərin *mərkəzində* olduğunu iddia etmir. GPE iqtisadiyyata üstünlük vermir; o, təhlilin *siyasi iqtisad* modelinə, həmçinin siyasət, iqtisadiyyat və cəmiyyət arasındakı fərqləri inkar edən təhlillərə üstünlük verir (bax: Nitzan və Bichler, 5-ci fəsil). Bu, GPE-də təhlillərin üstünlüyüdür, ancaq eyni zamanda, pedaqoji zərər kimi özünə yer tapıb. Təhlillər zamanı aşkarlanıb ki, GPE əvvəldən hər hansı təhlil formasını idarə etməyən, prinsipial məsələ qədər əhəmiyyətli olan, praktik məsələ kimi xarakterizə edilən elmin heterodoks sahəsində inkişaf edir.[7] Ancaq nəticədə iqtisadiyyatda, sosiologiyada, coğrafiyada, siyasət elmlərində, antropologiyada, fəlsəfədə, biznesdə, müəssisələr nəzəriyyəsində, IR-də və hətta psixologiyada və psixoanalizdə aparılan və onların təsvir etdiyi epistemoloji və metodoloji fərqlərlə bağlı debatların GPE-ni öyrənən tələbələrə uyğun olduğu nəzərə alınır. Ədəbiyyatdakı dərinlik və şaqulilik hətta ən savadlı və öz üzərində işləyən GPE-ni öyrənən tələbələrə də təsir göstərir.

Biz heç də müasir bölgü xətlərinin əhəmiyyətini yenidən təqdim etməməliyik. İqtisadi və sosial fikir tarixi bizə qısa, ancaq vacib əlaqələr, çarpaz mənbələr, mənbələrin paylaşdığımız məqamlarını və təəccüblü olsa da, onların birlikdə təsvir etdiyi nəzəriyyə və yanaşmaların müxtəlif tərəflərini öyrədib. Müxtəlif yanaşmalarda daha çox ümumilik var və bu, *GPE-nin paradiqizmi* adlanır, ola bilər ki, ilk müşahidələrdə aşkar edilsin. Biz müxtəlif yollarla nəzarət proseslərinə məna verməyə və müasir dünyadakı payları dəyişməyə cəhd edirik; biz hamımız texnoloji dəyişikliklərin qeyri-proqnoz yolu ilə cəmiyyətə və dövlətə təsir göstərən mədəni əlaqələrinin genişlənməsinin bazarlarla inteqrasiyasının güclənməsi ilə kombinə edildiyindən xəbərdarıq. Onların heç biri müasir GPE kimi geniş və maraqlı deyil, informativ olaraq fərqləndirilməyib. Buna görə də müasir nəzəriyyələşmənin əsas məzmununda yalnız onun geniş nəzəri ənənələri (11-ci fəsil) deyil, xüsusilə mövzunun (və ya fərdiliyin), dövlətin, MNEs-in, siyasi iqtisadi mühitin, hakimiyyət, kapital və əməyin daxil olduğu sosial elmlərin bütün fundamental kateqoriyalarının mərkəzindəki davamlı müzakirələr dayanır.

## Siyasətə iqtisadi yanaşmalar

Paul Krugman 1996-cı ildə Avropa Təkamül Siyasi İqtisad Assosiasiyasının illik konfransındakı nitqində iqtisadiyyata münasibətini bu amillər üzərində qurmuşdu:

1. İqtisadiyyat *fərdlərin* nə etməsi haqqındadır: siniflər *qüvvələrin korrelyasiyası* haqda deyil, sadəcə, fərdi aktyorlar haqqındadır. Bu, yüksək səviyyəyə uyğun sahə ilə bağlı təhlillərin inkar edilməsi demək deyil, amma hökmən onlar fərdi davranış üzərində köklənməlidir. Metodoloji individualizm onun mahiyyətindədir.
2. Fərdlər lovğa və özündənrazıdır. İqtisadiyyatda elə şey yoxdur ki, insanlara başqalarının istehlakından kifayətlənməyə imkan verməkdən bizi çəkindirsin, ancaq iqtisadi nəzəriyyənin proqnozlaşdırılan gücü özünəgüvənmədən irəli gəlir və bu, faktiki olaraq insanların özləri haqqında düşünməsi deməkdir.
3. Fərdlər qabiliyyətlidir: qazanc üçün fürsətlər əldən verilmir. Yüz dollarlıq əskinas nəzarətsiz şəkildə uzun müddət küçədə qala bilməz.
4. Biz bu cür fərdlərin *interaksiyası* (qarşılıqlı əlaqəsi) haqqında düşünürük: ən maraqlı iqtisadi nəzəriyyələr təklif və tələbdən başlayaraq «görünməz əl» haqqındadır; kollektiv gəlirlərdəki proseslər fərdlərin nə etmək niyyətində olmaları demək deyil (Krugman, 1996: 2).

Əgər standart iqtisadiyyat fərdlərin nə etdikləri haqqındadırsa və Krugmanın təklif etdiyi siniflər, qüvvələrin korrelyasiyası (bu aspektdə Krugman böyük ehtimalla sosioloqların sosial strukturu necə adlandırdığını nəzərdə tutur) haqqında deyilsə, onda Krugmanın siyasi iqtisadın nə haqda olması ilə bağlı irəli sürdüyü izah daha düzgün hesab edilə bilər. Krugmanın fikirlərindən çıxış edərək deyə bilərik ki, siyasi iqtisad standart iqtisadiyyatın əksinə olaraq sosial siniflər, dövlət və qüvvələrin korrelyasiyası haqqındadır. O, fərdlər haqqında elm deyil. Onda siyasi iqtisad standart iqtisadiyyatın açıq şəkildə inkar etdiyi məsələ və mövzular üzərində mərkəzləşib. İqtisadiyyat elmini müdafiə edərkən John Maynard Keynes belə bir fikir irəli sürüb ki, «millətlər və siniflər arasında iqtisadi mübarizə, yoxsulluq və tələbat problemləri heç bir şeydir, ancaq dəhşətli, keçici və əhəmiyyətsiz dərəcədə qarmaqarışıqdır» (Hardt və Negri, 1994: 35). Antonio Negrinin müşahidələrinə görə, standart iqtisadiyyat «tarazlıqdan başqa hər şeyin əslində heç nə olduğu, ancaq kəmağılların xarakterizə etdiyi kimi ümidsiz əminlikdə» birləşdirilib (oradaca: 35).

Bu əsasda heç bir siyasi iqtisadçı Keynesin *əhəmiyyətsiz və dəhşətli nizamsızlıqlar* kimi xarakterizə etdiyi iqtisadiyyatda daha çox ilhamverici amillər tapacağını gözləmir. Hələ də Krugman «təhlilin yüksək səviyyəsindən» danışarkən iqtisadiyyatın inkişafına yardım edən siyasi iqtisadın xüsusi ənənəsini diqqətə çatdırır. Əlaqə siyasətdə iqtisadi yanaşmaların yeni sahəsi ilə bağlıdır və bu, bəzən *yeni siyasi iqtisad* adlandırılır. Bu isə Murphy və Toozenin (1991) dəstəklədiyi kimi, *yeni IPE-də* ədəbiyyatın olduqca fərqli şəbəkəsidir. Neoklassik metodologiyanın mahiyyətindən mənimsənilən nəzəriyyələr şəbəkəsi siyasət həyata keçirməyin determinantlarını izah edir. Məsələn, yeni siyasi iqtisadın dövlət nəzəriyyəsi hökumət siyasətinin marjinalizm, optimalizm və tarazlığın neoklassik konsepsiyası tərəfindən izah edilməsi ideyasını dəstəkləyir (Meier, 1990: 185). Ənənəvi IR-in ziddinə olaraq, yeni siyasi iqtisad dövlətlə birləşməyib onu «hər hansı bir cəmiyyətdə az sayda institutların sadəcə birisi, başqaları

tərəfindən deyil, müəyyən fərdlər tərəfindən sahiblik zərurəti» kimi təsvir edir (Auster və Silver, 1979: 1), bununla belə, imtiyazlı dövlət institutlari ilə əlaqəlidir. Yerli amillərə əsaslansaq, dövlət *təbii inhisar* və *izafi* kimi davranır və bu o deməkdir ki, dövlət maksimumlaşdırılmış *icarə* kimi təsvir edilən kiçik inhisardır və bu da ali hakimiyyətin maraqlarına uyğundur. Nəticədə dövlət işaxtaranların izdihamına cazibədarlıq əlavə edir və başqa maraqlar da onu ələ almaqdan ötrü narahat olur. Buna görə də dövlət bazarın xüsusi funksiyalaşması daxilində ziddiyyət və qeyri-tarazlığı təşkil edən erogen amil kimi təsvir edilir. Adam Smithin görünməz əllə bağlı nəzəriyyəsində təklif olunur ki, fərdlərin eqoist üstünlüyünün – maksimallaşdırılmış davranışının azad hökmranlığına icazə veriləndə fantastik enerji azad olur və o, iqtisadi inkişafı sürətləndirir. Bununla belə, əgər istiqamət münasib deyilsə, fərdlərin eqoist davranışı ziyanlı və dağıdıcı ola bilər. Adam Przeworskinin (1990) qeyd etdiyi kimi, burada bir rişxənd var: bir tərəfdən yeni siyasi iqtisad cəmiyyətin kollektiv rolunun minimumadək azadılması yollarını axtarır, başqa tərəfdən isə tələb edir ki, dövlət geniş icarəaxtaran davranışından çəkindirən oyun qaydalarının müəyyənləşdirilməsini müdafiə etsin.

İstənilən halda iqtisadi amil kimi dövlət nəzəriyyəsi yeni dalğada dövlətdaxili münasibətləri təqdim edir. Ənənəvi siyasi iqtisadin əksinə olaraq, GPE göstərir ki, dövlət iki müxtəlif səviyyədə oyunlara cəlb edilir: daxildə yeni siyasi iqtisadın müəyyənləşdirdiyi oyuna və xaricdə dövlətin özünün xüsusi qaydalar şəbəkəsi olan başqa oyuna. Buna görə də dövlətin davranışı qarışıqdır və təhlillər hökmən hər iki səviyyədə aparılmalıdır. IPE-nin bu qolu 8-ci fəsildə müzakirə edilib.

Standart iqtisadiyyatın bizə öyrətdiyi kimi, əgər bazar resursların toplanmasında ən yaxşı mexanizmdirsə, onda nə üçün müasir kapitalizmin əsas agentləri, MNEs bazar münasibətlərini özlərinin şəxsi daxili bürokratik iyerarxiyaları ilə əvəz etmək istəyir? Onlar bunu ya birbaşa genişlənmə, birləşmə və rəqiblərini udmaqla, ya da daha incə yollarla, onlarla alyans yaradaraq rəqiblərlə qeyri-formal münasibətlər yaratmaqla edirlər (Phillips, 3-cü fəsil). Nitzan və Bichler (5-ci fəsil) izah edirlər ki, bütövlükdə bu paradoks heç də paradoks deyil: problem sadədir və standart iqtisadiyyatın səhv olmasıyla bağlıdır: bazar loyallıqdan uzaqdır (hər hansı *bazar* ola bilər), MNEs özlərinin mənfəət marjlarını artırmaqdan ötrü «təxribatçı» bazarlar rolunu oynayır. Bu faktdır ki, standart iqtisadiyyatın mükəmməl bazarı MNEs üçün anafemadır! Ancaq təkamül institusionalizminin arqumentlərinin ziddinə olaraq, neoklassik iqtisadiyyatın revizionist qanadı iddia edir ki, əksər nümunələrdə iqtisadi sövdələşmələrin *eksogen* xərci resursların toplanması üçün daha səməpəli mexanizmi yaratmağa yönələn MNEs-in daxili iyerarxiyasının xərcləri qədər çox yüksəkdir. Onların rəqabət perspektivləri arasında hökm çıxarmadan mən, sadəcə, onu qeyd edə bilərəm ki, biz artıq üç məsələdə qazanc əldə edirik – GPE potensial rəqabət, «özək» fərziyyələri, fərdi rasional seçim, mənfəət, logistik səmərəlilik əsasında formalaşıb (9-cu fəsil).

## Marksist siyasi iqtisad

Marksist nəzəriyyə elmin ənənəvi bölgü xətlərini heç zaman qəbul etməyib və əminliklə qeyd etmək olar ki, o, yerli və xarici siyasət arasındakı analitik bölgüyə heç zaman uyğunlaşmayıb. Əgər marksizm siyasi iqtisadın birləşdirilmiş

nəzəriyyəsini irəli sürürdüsə, bu, *GPE-dır*. Marksizm üçün müasir dünyanın mərkəzi institutu kapitaldır və deməli, dominant sosial institut kapitalizmdir. Ancaq Nitzan və Bichlerin 5-ci fəsildə göstərdiyi kimi, kapitalın təbiəti tapmaca olaraq qalır və hələ də açılmayıb.

Kapitalizmə mənfəət motivinə və əməyin ümumi modifikasiyasının daxil olduğu əmtəə əlaqələrinin dominantlığına əsaslanan sosial sistem kimi də tərif vermək olar. Kapitalizm dominant sosial institutun yaratdığı hərtərəfli sosial-iqtisadi transformasiyaların şəbəkəsi kimi inkişaf edir. Bura isə ailə və icbari münasibətlər üzrə müqavilələrin dominantlığı daxilidir, nəticədə kapitalist qanunu və kapitalist dövləti inkişaf edir. Marksizmin xidmətlərinin bir qanadı olduqca problemlidir, orada göstərilir ki, kapitalizmin inkişafının qərəzsiz nəticələri *siyasi* və *mədəni* transformasiyalardır. Başqa sözlə desək, sosial, siyasi və ideoloji transformasiyalar «həyatın maddi vəziyyətindəki» dəyişikliklərin sadə məhsullarıdır. Bununla belə, müasir marksist fikir məktəbi bu əsasa – daha nüanslı tarixi və məqsədli siyasi-iqtisadi uçota söykənən superstrukturlaşmış modelə üstün gəlmək üçün mübarizə aparır.

Marx kapitalizmi öz tarixini müəyyənləşdirən xüsusi *məntiq* kimi təsvir edir. Kapital birinci və hər şeydən əvvəl özügenişlənən dəyər idi. Kapitalizm dalğa-dalğa genişlənir: müəyyən tarixi dövrlərdə kapitalizm böyük, yeni və uzaq bazarların genişlənməsinə doğru meyl göstərib, başqa dövrlərdə isə sosial həyata diqqətini artırıb. Genişlənmə tendensiyalarının bu iki forması 19-cu əsrin müstəmləkəsindən 20-ci əsrdə Bretton Woods sisteminin və 21-ci əsrdə qloballaşmanın güclənməsinədək olan dövrdə hərtərəfli inkişafın məqsədli uçotunun səbəblərini formalaşdıra bilər (McMichael, 7-ci fəsil). Eyni zamanda, marksist siyasi iqtisad sosial həyatın bütün tərəflərinin ümumi modifikasiya və genişlənməsinin, eləcə də kapitalist sosial münasibətlərinin dərinləşməsinin uçotunu aparır. Kapitalla bağlı deyilənləri nəzərə alaraq marksist siyasi iqtisad GPE-ni tarix və cəmiyyət nəzəriyyəsinin sərhədləri daxilində müəyyən edir. Bu da faktdır ki, 1930-cu illərdən bəri marksizm məktəbinin davamçıları, Benjamin, Adorno və Horkenheimer və daha yaxınlarda Deleuze, Guattari, Hardt və Negrinin proqnozlaşdırdıqları kapitalla bağlı cəmiyyətin sonrakı genişlənməsini Lyotard (1984) *postmodern* vəziyyət kimi xarakterizə edib.

Marksizm GPE institutlarını üç yolla təhlil edir:

1 Yeni institusionalizm institutları tarixi olaraq bazar böhranlarının fövqəladə həlli kimi təsvir edilən müddətdə (Spruyt, 9-cu fəsil), marksist yanaşma institutları bunu birbaşa olaraq hakimiyyət institusionallaşmasının formaları kimi təqdim edir (Poulantzas, 1973). Bu nəzəriyyəyə uyğun olaraq sosial siniflər öz qazanclarını normallaşdırma və institusionallaşdırma vasitəsilə müdafiə edirlər. Buna görə də institutlar əldə edilmiş sosial qazanclardan təşkil olunur. Eyni zamanda, qazanclar kifayət qədər güclü müdafiə olunur və buna görə də institutlar, məsələn, dövlət, ailə, firma neytral sinif olmağa çalışır. Onların bu statusu kifayət qədər ciddi qəbul edilir. Biz də kifayət qədər ehtiyatla fasiləli qeyri-bərabərliyə və hakimiyyət differensiallığına və bu institutların sinfi təbiətinin artmasına təsir etməliyik.

2 Bununla belə, müasir marksizm nəzəriyyəsi institutların yuksək dərəcədə eksklüziv olaraq azaldılmasının mümkünsüzlüyünü müdafiə edir; əlavə olaraq onlar materialist əsası dəyişilmiş təbiətin mürəkkəb qaydalarıdır. Müqavilələrin institusional quruluşu, şəxsi mülkiyyət, demokratiya və s. birbaşa olaraq kapital tərəfindən müəyyən edilmir, ancaq kapitalın mərkəzi institutları tərəfindən *əlavə olaraq müəyyənləşdirilir*.

3 Əlavə olaraq bəlli aparıcı institutlar, xüsusilə dövlət institutu siniflərə bölünmüş cəmiyyətlərdə aparıcı rol oynayır. Dövlət, sadəcə, materialist əsasın epifenomeni və ya idarə edilən sinfin nəzarətindəki alət kimi təsvir edilə bilməz. Dövlət kapitalist münasibətlərinin uzun müddət davam etməsinə yardım edən strukturların inkişafına imkan yaradır. Deməli, dövlət hakim sinfin idarə edilməsini təmin, maraqlarını isə müfadifə edir və eyni zamanda, o, mənafelərin münasib avtonomiyası kimi qalmalıdır (Poulantzas, 1973).

İnstitutların sinfi əsasda təbiəti və kompleks yanaşma ilə bağlı marksizmin fikirlərinə söykənsək, onun GPE-ni iki güclü hipotezlə təmin etdiyi qeyd olunmalıdır. Birincisi siyasi iqtisadın bütün qanadlarının mərkəzində duran inkişaf məsələləridir. Neoklassik nəzəriyyə üçün inkişaf məsələsinin həll edilməsi olduqca sadədir: bazarlara imkan ver, onlar işini görsün. Az inkişaf etmiş ölkələr arasında sənayeləşmənin kifayət qədər aşağı səviyyədə olmasını nəzərə alsaq, məhsuldar azalmalar qanunu beynəlxalq investisiyalar paketinin üçüncü dünya ölkələrinə doğru istiqamətlənməsini təklif edir. Buna görə də məhsuldar azalmalar qanunu az inkişaf etmiş ölkələr arasında iqtisadi artımın daha tez əldə edilə bilməsini proqnozlaşdırır. Başqa tərəfdən, postmüharibə dünya iqtisadiyyatı kapitalın mərkəzləşdirilməsini və konseptasiyanın ənənəvi obrazlarını göstərməkdə davam edir. WB, IMF və başqa maliyyə qurumlarının verdiyi bir izahatda göstərilir ki, belə müdaxilə ziddiyyətli bəlli məhsuldar azalmalar qanunu və ya *inkişaf etmiş iqtisadiyyatın* geniş nəzəri quruluşunu şübhə altına ala bilməz. Başqa tərəfdən, inkişafın əldə edilməməsinə *eksogen amillər* məsuliyyət daşıyır (yenidən!), daha dəqiq ifadə etsək, üçüncü dünya ölkələrindəki uğursuzluqlar siyasi sistemlərin qiymətləndirilməsi zərurətini daha da gücləndirir. Deməli, birbaşa neoklassik iqtisadiyyatla alyansda olan modernizasiya nəzəriyyəsi göstərir ki, inkişaf etməkdə olan ölkələrin daxili siyasi sistemdəki dəyişiklikləri sərbəst bazarlarla və dünya azad rəqabəti ilə birləşdirilib.

Bununla belə, marksizm hamar olmayan inkişaf qanununun yəqinliyini müdafiə edir, bu da ona görədir ki, «bir tərəfdən imperialist genişlənmə, başqa tərəfdən inhisarçı inkişaflar kapital sisteminə həyatın yeni icarəsini verir və qəti olaraq onun formalaşması vaxtının yubanmasına çalışır» (Meszaros, 1995: 34). İdeal qlobal bazar tarazlığı yüksək səviyyədə marjinal mənfəətin əldə edilməsi üçün yubadılır və *diversiyaya* uğradılır. Neomarksizm çoxlu sayda üsulla təqdim edir ki, onda hakimiyyət və iyerarxiya məsələsi dünya iqtisadiyyatının təhlillərinin daxilindədir. Deməli, Keynesin «dəhşətli qarma-qarışıqlığının» ziddinə olaraq, marksizm onun nəzəri quruluşunun mahiyyəti ilə birləşir, daha dəqiq desək, iqtisadiyyat onun elementlərini eksogen və ya asılı elementlər kimi müzakirə edir. Yekunda standart iqtisadiyyat tərəfindən ümumiləşdirilən nəticələrin ziddinə olaraq, başqa diametrik nəticələr əldə edilir.

Marksizmin ikinci güclü hipotezi qlobal idarəetmə kimi təqdim edilən transnasional məsələlərlə bağlıdır. Marksizm bizə xatırladır ki, burjuaziya sinfinin ideologiyası təhlillərdən əməyi aradan qaldırmaq üçün yollar axtarır. İqtisadi artım və iqtisadi bolluq bazarın görünməz əlini, müasir CEO-nun qabiliyyətini, hökumətin uğurlu siyasətini, texnologiyanı təyin edir, amma əminliklə qeyd etmək olar ki, o, *iqtisadi sistemi* formalaşdıran milyonlarla fəhlənin ağır zəhmətini və istismarını təyin etmir. Ancaq əmək müasir iqtisadiyyatın həm mal və xidmətlərin əsl istehsalçısı, həm də məsrəfçisi kimi «gizlədilmiş» altstrukturudur. Michel

Agliettanın fikrincə, klassik marksistlər işçi qüvvəsinin başqa mallar kimi əmtəə olmadığını qiymətləndirməkdə uğursuzluğa məhkum olunublar (Aglietta, 1979: 46). Eynicinsliyin və ya əmtəə formasının *qarşılıqlı əvəzləmə* təbiətinin ziddinə olaraq işçi qüvvəsi yalnız diqqətlə təyin olunmuş əmək proseslərində əməkhaqqı-əmək kimi kapitala daxil edilə bilər. Sonda sosial və siyasi münasibətlərin daxil olduğu cəmiyyət əməyin təşkilatlanması üçün əsas hesab edilir və deməli, iqtisadi sistemdə *xarici* və ya *eksogen* səbəb kimi nəzərə alına bilməz. Onda qlobal idarəetmə məsələsi *əməyin qlobal idarəedilməsi* məsələsi ilə eyni məna daşıyır və transnasional sinif iyerarxlarına xidmət edir (O'Brien, 6-cı fəsil). Bununla yanaşı, fransız tənzimləmə məktəbinin kapital və əmək münasibətlərilə bağlı araşdırmalarından aydın olur ki, niyə 1930-cu illərdə transnasional kapitalizm qəfildən *milliləşib* və yalnız 1970-ci illərdə yenidən *qloballaşıb* (Palan, 1998a).

Onda marksizm GPE-ni müasir iqtisadiyyatın tənqidi və məqsədli izahı ilə təmin edir ki, bu da *GPE-dır.* O, siyasi iqtisadın köməyi ilə formalaşan və həm siyasi, həm də iqtisadi təsniflərə zidd olan münasibətlərin, nümunələrin, strukturların şəbəkəsi kimi təsvir edilir.

## İnstitusionalizmin dönüşü

*«Kapitalizmin leqal fondları»* əsərində John Commons iqtisadi fikrin 3 ənənəsini fərqləndirib: fikirlərini istehsal və əmtəə üzərində mərkəzləşdirmiş Adam Smith, David Ricardo və Karl Marxın təmsil olunduğu klassik iqtisadiyyatı, iqtisadi nəzəriyyənin subyektiv tərəfləri ilə maraqlanan hedonist iqtisadçıları və bunlardan Bantham, Senior, Jevons, Clarkı qeyd etmək lazımdır.[8] Nəhayət sonuncu, iqtisadiyyatın ümumi nəzəriyyələri ətrafında birləşən iqtisadçılar və bunlardan da Hume, Malthus, Carey, Bastiat, Cassel, Andersonu, xüsusilə də ABŞ-ın Ali Məhkəməsini misal gətirmək olar. İndi *təkamül iqtisadiyyatı* adlandırılan sonuncu cərəyan haqda John Commons yazırdı: «Təkamül iqtisadiyyatı əmtəə və ya hisslərlə deyil, gələcək məqsədlərlə başlayaraq haqların, öhdəliklərin, azadlıqların, şəxsi mülkiyyətin, dövlətilərin və assosiasiyaların inkişafına imkan yaradan idarəedilən hökumət sövdələşmələrinin qaydalarında özünü müəyyən edir» (Commons, 1959: 4).

John Commons və Thorstein Veblen bu ənənəyə daha hörmətlə yanaşırlar. Onlar inandırıcı şəkildə izah edirlər ki, 19-cu əsrin sonlarına doğru Marxın təsvir etdiyindən tamamilə fərqli kapitalist formalarının təşkilatlanmasına nail olmaq yolu ilə ABŞ hüquq məhkəmələri səmərəli olaraq müqavilə hüquqlarını və özəl mülkiyyətin təbiətini dəyişdirdi. Nəticədə xüsusi mülkiyyət sahiblərinin şəxsi istifadəsi üçün fiziki varlığın müstəsna sahibliyi başqaları tərəfindən ehtiyac duyulan məhdud resurslara nəzarət prinsiplərinə doğru çevrilib.[9]

Commonsun fikrincə, bu vacib hadisələr 1872-1897-ci illər arasında baş verib. ABŞ məhkəmələrinin çoxlu sayda vacib qayda-qanunları sahibkarlığın ənənəvi mahiyyətini dəyişdirdi. Bu isə istənilən maddi əşyanın sahibkarlığa daxil edilməsi anlamında idi və başqa mənası «hər hansı gözlənilən fəaliyyətin mülkiyyət sahibkarlığı ilə münasibətləri nəzərdə tutması»dır:

> Əmlakın formalaşması, istifadəsi, əldə edilməsi fəaliyyətlərində dərk edilənlərdən biri sahibkarlıq və bir də biznesdir. Birinci olan sahibkarlıq mülkiyyət sahibliyinin

mahiyyətində və bir də mülkiyyət mübadilə dəyərinin mahiyyətindədir. Biri fiziki varlıqlar, ikincisi isə bazar qabiliyyətli aktivlərdir (1959: 18).

Sahibkarlığın orijinal mənası, mülkiyyət sahibliyi görünməyən deyil, ancaq o, nəyin ev təsərrüfatı və ya funksiyalı müəssisələrin *daxili iqtisadiyyatı* kimi təsvir edilə bilməsinə istiqamətlənib. Bizim şəxsi, özəl mülkiyyətin izahı hələ də sahibkarlığın maddi və köhnə təsviri kimi qalmaqdadır. Bununla belə, müasir kapitalizm daha çox və müstəsna olaraq qeyri-maddi sahibkarlıqla maraqlanır. Məsələn, «General Motors»un menecerləri və səhmdarları maşın alətləri, GM avtomobillərinin istifadə dəyəri və s. ilə deyil, məhsulların mübadilə dəyəri, bazar qabiliyyəti ilə xüsusi olaraq maraqlanırlar. Ancaq Commonsun (1959) qeyd etdiyi kimi, mübadilə dəyəri maddi deyil, xüsusi davranışdır. Bu, bazar dəyəridir və malların satıla bildiyi və ya satıldığı hər hansı bazarda əmtəə mübadiləsinin qəbul edilməsi gözlənilir (Nitzan və Bichler, 5-ci fəsil).

Şirkətin, məsələn, IBM-in dəyəri nədir? IBM-in dəyəri onun maşınlarının, real əmlakının, «biliklərinin» və menecer praktikasının dəyərinin birləşməsidirmi? Klassik siyasi iqtisad və marksizm bu təsnifləşdirmə ilə razılaşardı. Ancaq burada IBM-in dəyərini müəyyənləşdirməyin başqa yolu da var: birjada şirkətin qiymətləndirilməsi həyata keçirilir. Birjada *investorlar* IBM-in səhmlərini alıb-satarkən onun dəyərini qiymətləndirirlər. Onda IBM səhmlərinin son bazar dəyərini nələr müəyyənləşdirir? Səhmin qiyməti alıcıların səhmlərin alınmasına pul xərcləməyə hazırlaşması ilə müəyyənləşir. Alıcılar birbaşa şirkətin gələcək mənfəət əldə edə bilmə qabiliyyəti ilə bağlı öz qiymətləndirmələrinə və ya gələcək mənfəət əldə edə bilmə qabiliyyəti ilə bağlı başqalarının davranışlarına əsaslanaraq qərar qəbul edirlər. Başqa sözlə desək, IBM-in dəyəri tamamilə subyektivdir. Nəticədə bu, olduqca sərfəli bir iş ola bilər; şirkətin böyük olmayan gəliri ilə, məsələn, «Yahoo»nun Web səhifələrini IBM-ə nisbətən daha çox bazar qiymətləndirir. «Yahoo» özünün gələcək davranışları, xüsusilə uzaq gələcək üçün qazanc qabiliyyəti üzrə kapitallaşdırılıb. Buna görə də IBM-in dəyəri tamamilə *subyektiv* varlıqdır, o isə hər hansı maddi aktivlər üzərində deyil, gələcəyin aqreqat qiymətləndirmələri üzərində qurulub. Onda IBM-in gələcək dəyəri qiymətləndirilməli pula «tərcümə olunacaq»: *real pul* və ya real pul kimi başqa pullara. Deməli, *pul* və *dəyər* «gələcək qazancların kapitallaşdırılması» kimi yaranır və ancaq görünmür. Bəs bu bizə dəyər, kapital və pulun təbiəti haqqında nə deyir? Bu mexanizm kapitalizm mexanizminin işləməsində hansı dərəcədə əhəmiyyətlidir? Bəs hakimiyyət və mənafelər haqqında nə demək olar? Bunlar təkamül iqtisadiyyatının cavabını axtardığı sualların bir qismidir.

Bu ideyalar, təkamül iqtisadiyyatının nəzəri formaları, onların əlaqəsi xüsusi olaraq 3-cü və 5-ci fəsillərdə müzakirə edilir. İstər Commons, istərsə də Veblenin cavabını axtarmadığı sual belədir: kapitalizmin yanaşı transformasiyasının və özəl sahibkarlığın konsepsiyalarındakı dəyişikliklər institusional terminlərdə aydın şəkildə təsvir edilib, yoxsa artıq edilmiş seçimlər növünü müəyyənləşdirən bəzi *eksogen* maddi maraqlar olub? Olmaya bu nümunə Antonio Negrinin (Hardt və Negri, 1994) «hüquqşünaslar aktiv şəkildə çalışırlar ki, kapitalist yığımının tələblərini uyğunlaşdırsınlar» obrazı kimi deyil? Bütün bunlardan sonra marksist siyasi iqtisadi nəzəriyyənin Veblenin institusionalizmini uyğunlaşdırmağı

bacarması ilə bağlı nümunə varmı? Ancaq institut kimi bazarların izahı müasir GPE-nin mərkəzinə çevrildi.

## Postrasional GPE-yə doğru[10]

Fərqlərə baxmayaraq, klassik siyasi iqtisadın 3 «qalığı» rasional epistemologiyanı paylaşdırır. Dövlət və transnasional firmalar aydın və müstəsna hüquqlara, adətən maksimallaşdırılmış fayda və məqsədlərə (hakimiyyətdən tutmuş mənfəətədək) söykənən rasional, qənaətcil «aktyorlar» kimi qəbul edilir. Baxışlardakı fərqlər əsasən aktyorların fərdlər, institutlar, yaxud məhdud seçimlər, informasiya və bilik boşluqları və ya qeyri-müəyyən olması ilə bağlıdır. Bəs dünyanın universal qaydalar, dəmir qanunlar və ya sistemli məntiqlər tərəfindən idarə edilən rasional seçimlər olmadığını təsvir edən gündəlik fenomen nədir? GPE-də izahatların postrasional (antirasional yox) üsullara marağı artıran səbəb var. Postrasionalizm nəzəriyyələr şəbəkəsindən ibarətdir. Bu nəzəriyyələr qaydanı və qaydasızlığı (institusional və tarixi fasiləsizliyin məhsulu, idarəetmənin formal və qeyri-formal qaydaları) sosial və institusional qarşılıqlı əlaqə, ümumi patalogiyalar, bilik və dil, münaqişə və mübahisə və s. kimi izah edir.

Postrasional GPE-dəki dəyişikliklər 13-cü fəsildən başlayaraq sonadək təqdim edilib. Daha geniş danışsaq, postrasionalist GPE nəticələri proqnozlaşdırıla bilməyən, ancaq hər aktyor şəbəkəsinin mübaliğəsiz olaraq itkidən qorxması üzərində qurulub araşdırılan və mübahisə edilən sonsuz tarixi müzakirələri adaptasiya edir. Dövlətlər və MNEs heç də instrumental üstünlüklər (maksimallaşdırılmış institutlar) kimi sadə təsvir edilmir. Ancaq onlar faydalı olmayan yollarla məqsədlərinə çatan və funksiyalarını yerinə yetirən kompleks təşkilatlar kimi təsvir edilir. Onların dili, ssenarisi, tarixi, texnostrukturları (təhlil göstərir ki, onlar təkamül məntiqlərində özlərinə «tələ qurublar») göstərir ki, ancaq daim özlərini yeniləşdirmək üzərində işləyirlər. Sonda biz GPE-nin özünün iqtisadi və maddi bazasından mədəniyyət və tarixin ciddi məsələlərinədək «açıq» olmasına şahidlik etdik.

Həqiqətən geniş və hərtərəfli hərəkət olan postrasional GPE-dən, Foucaultun araşdırmalarının əhəmiyyəti xüsusi olaraq qiymətləndirilməyib. Bu məsələlər arasında Foucault marksizmdə (Marxdan sonra) və birbaşa «rasionalizm» düşərgəsində olan siyasi iqtisadın əsas istiqamətlərində yer tapan agentliyin konsepsiyasını ümumiləşdirib. Foucaultun hakimiyyət və fənn haqqında araşdırmaları göstərib ki, tarixi dəyişikliklər institutlar və ya sosial siniflər kimi deyil, alyansların təsadüfi formalar və müzakirələrdəki oxşar (fövqəladəlik kimi müəyyən edilən) kollektiv agentliklərdən gəlir. Məsələn, özünün *«Fənn və cəza»* (1977) əsərində Foucault hakimiyyət və fənnin yeni formalarını kəşf edən islahatçılar qrupunu təsvir edir. Onun araşdırmaları üçün əsas rolu oynayan «regional» elmlər subyektivliyin tarixi və müasir kapitalizmin əsas «infrastrukturu» olan müasir rasionallığı və müasir fənni meydana gətirən bir çox tarixi vəziyyətlərdən ibarətdir.

GPE-nin hazırda tənqidi qanadı çox qarışıqdır, amma marksist sintezlər, institusional və poststruktur fikirlər deyil. Marksizm bizi kapitalizmin uzunmüddətli trayektoriyasının güclü hipotezləri ilə təchiz edir. Ancaq marksizmin xüsusilə proqnozlaşdırmada və ya qısa və ortamüddətli tranşları müəyyən etməkdə

çatışmazlıqları var. Onda bu yanaşma poststrukturizm və institusionalizmin davamlı empirik istəkləri ilə marksizimin geniş sosial tənqidi təhlili üçün bir körpüdür.

## İqtisadiyyat, siyasi iqtisad və GPE arasında

İki fikir məktəbinin ənənəsi formalaşandan bəri rasionalizm və tənqidi ənənə dramatik şəkildə fəndaxili tədqiqatların məqsədinə və təbiətinə, eləcə də GPE fərqlərinin sərhədlərinə və təbiətinin konsepsiyasına zidd nəzəriyyə kimi təsvir edilib. Rasional yanaşmalaradək, xüsusilə də metodoloji individualist GPE-yədək GPE ilə başqa fənlər arasındakı sərhəd aydın idi: GPE IR-in altqurumu kimi, bir tərəfdən, daxili və xarici siyasətin, başqa tərəfdən isə ticarət, maliyyə və başqalarının kəsişməsində dayanırdı. Bununla belə, Carlsonun (8-ci fəsil) qeyd etdiyi kimi, bir fakt öz təsdiqini tapıb ki, dövlət ticarətlə məşğul olmur, ancaq fərdlər və firmalar bu işi görür, sadəcə olaraq dövlətlər ticarət şərtlərini müəyyənləşdirir. Müasir rasional GPE dövlətin ticarət siyasətinin əhatələnmiş *daxili* determinantının bir olması ideyasına istiqamətlənib.

Sosial elmlərdəki geniş tənqidi ənənə təbii olaraq sosial münasibətlərin məqsədli izahatlarına cəlb edilir. Nəzəriyyələrə görə, burada predominant məntiq tərəfindən idarə edilən ümumiləşdirilmiş proseslər var və biz də onu kapitalizm adlandırırıq. Həmçinin, belə ümumiləşdirilmiş proseslər sosial həyatın bütün aspektlərində özlərinə deklarasiya verirlər. Buna görə də tənqidi ənənə sosial həyatın hər bir tərəfini münasibətlərin müstəqil sistemi kimi öyrənməkdə lüzum görmür. Sadə səbəb ondan ibarətdir ki, onlar müstəqil deyil, sadəcə, qarşılıqlı olaraq bir-birlərindən asılıdırlar. Nəticədə tənqidi ənənə formal akademik bölmələrin təhlilinin legitimliyini qəbul etmir. Onda tənqidi ənənə onun rasional və postrasional qanadları arasında bölünür.

Burada ümummilli konsepsiya ilə ümumiləşdirilmiş proseslər arasında incə, ancaq kifayət qədər vacib fərq var. Ümumiləşdirilmiş proseslər praktika və fikir sistemi mənasını verir. Bu isə o deməkdir ki, həmin sistem universallıq axtarır və öz mühitinə üstünlük verir; belə sistemlər genişlənəndir, ancaq heç zaman doğru olaraq öz məqsədlərinə çatmır, doğru ümumi sistem yaratmırlar. Belə olan halda hətta hadisələri bütöv və ya qısmən də olsa izahla təchiz etmək üçün nə bir konsepsiya, nə də dinamik və ya rasional şəbəkə var. Nəticə bunu deməyə əsas verir ki, ümumiləşdirilmiş proseslərin fərziyyələrinə söykənən fikir sistemi təkamüldür, tarixidir, qeyri-teleologikdir (məqsədə ünvanlanmamış), həmçinin tez-tez qəbul edilən eklektizmdir; fikir sistemi «oradakı» dünyanın ümumiliyinə, bütövlüyünə əsaslanan nəzəriyyəyə müqəddimə verib və o da tarixin əskikliyinə, tarazlığa üstünlük verməyə meyllənib. Siyasi iqtisad onların hamısı ilə daha faydalı və spesifik birləşməyə və tənqidi, təkamül və dinamik olmaq üçün iqtisadi sistemin sistemli elmlərində onlara müraciət etməyə üstünlük verir.

İndi biz görə bilərik ki, ümumiləşdirilmiş proseslər anlayışı siyasi iqtisad və GPE arasındakı münasibətlərin izahına necə təsir edir. Bir vahid sistem (ümumilik) olmadıqca beynəlxalq sistem ayrıca sahə kimi deyil, sosial nəzəriyyənin mühüm hissəsi kimi təyin edilə bilər. Hələ də dövlətin təşkilatlanmasının vahidliyi və suverenliyinə əhəmiyyət verilməyib. Nəticədə siyasi iqtisad prinsipial olaraq IPE-dən fərqlənmir, bu isə o deməkdir ki, yaxşı siyasi iqtisad beynəlxalq xarakterlidir

və əksinə. Ancaq biz onların fərqlərini göstərsəydik, onda mən razılaşardım ki, siyasi iqtisad dövlət nəzəriyyəsinə söykəndiyi müddətdə tənqidi GPE dövlətlər nəzəriyyəsini, dövlətlər plüralizmini təklif etməklə ona əlavə edir. Daha dəqiq desək, tənqidi GPE rabitəsiz siyasi səlahiyyət sistemində çalışan transnasional iqtisadiyyatın təbiətinin nəzəriyyəsini inkişaf etdirməyə meyllənib. Siyasi iqtisad *sosial formalaşmada* qaydaların və dəyişikliklərin necə yaranmasının təhlili məsələsi üzərində cəmləşməyə meyllənib. Bununla belə, problem ondadır ki, onun təhlilaparma üsulunda hər bir sosial formalaşmanın onun fəaliyyətinin şəxsi avtonom şəbəkəsi üçün mövzu olmasını nəzərdə tutan fərziyyə proqnozlaşdırılır. Əksinə, tənqidi IPE və ya GPE sualın məzmununu dəyişir; o soruşur ki, rabitəsiz siyasi səlahiyyət sistemində qayda və dəyişiklik necə yaranır. Deməli, siyasi və iqtisadi sahələr arasında bir çox fərqlər IPE-də davam edən dəyişikliklərin əsas mənbələrindən biri kimi GPE tərəfindən təyin olunub.

Geniş paylaşdırmalara və müxtəlifliyə baxmayaraq, burada aydın xətt var və onun yolu siyasi iqtisadın və sosial elmlərin rəngarəng topoqrafiyasının və münaqişənin aydın labirintindən keçir. Bu, doğru olaraq IPE və GPE kimi təsvir edilib. Fundamental olaraq bu, rabitəsiz siyasi sistem daxilində müasir iqtisadi əməliyyatların problematik özünəməxsusluğu ilə edilməlidir.

## Qeydlər

1 Mən Angus Cameron, Lisa Carlson, Philip Gerny, Sandra Halperin, Otto Holman və Marianne Marchandə bu fəsillə bağlı səmərəli qeydlərinə görə təşəkkür edirəm.

2 «Tənqidi ənənə» və ya «ənənələr» təhlili və nəzəri sərtliyi nəzərdə tutmur (və əlbəttə, tez-tez yox). Ümumi olaraq tənqidi ənənə anlayışı «status kvo»nun tənqidi təsvirini verən və *dəqiqliklə* predominant hakimiyyət strukturlarının əvəzlənməsini izləyən elmlər üçün saxlanılıb. O, kapitalizm, sənayeləşmə və ya onların sosial tədbirlərdə nəyi daha ədalətli görməsinə əsaslanan irqi hakimiyyət münasibətlərini öyrənir. Tənqidi ənənə anlayışı *tənqidi nəzəriyyə* ilə eyniləşdirilməməlidir, əks təqdirdə o, marksist fikrin Frankfurt ənənəvi məktəbi kimi tanınardı.

3 *«Dövlətlər və bazarlar»* Susan Strange (1988) tərəfindən yazılmış başqa məşhur kitabın adıdır. Bununla belə, bu adı seçməklə Susan Strange IPE-də hökmranlıq edən ortodoksallığın istehzalı tənqidini təsvir edib. O, dərin təəssüf hissi ilə qeyd edib ki, onun seçimi IPE-dəki dövlət və bazar yanaşmalarına münasibəti kimi çox aydındır.

4 Robert Walker (1994) qeydləri Machiavellinin müasir izahı ilə eynilik təşkil etmir. Bax: Pocock (1975) və Bettali (1972).

5 Treitschke (1916), Meinekenin (1962) müzakirəsi üçün bax: Palan və Blair (1993), Treitschke haqqında bax: Metz (1982).

6 İqtisadiyyatla hermeneutikslərın arasındakı kompleks və nəzərdən qaçırılan əlaqələrin müzakirəsi üçün bax: Mirowski (1990).

7 Məsələn, Susan Strange inandırıcı şəkildə iddia edir ki, GPE nəzəriyyə və ya fənn deyil, o, sadəcə «təhlillərin şəbəkəsi və insan vəziyyəti ilə bağlı diaqnozların metodudur və iqtisadi, siyasi və sosial şərait tərəfindən gücləndirilir və gücləndirilib» (1988: 16). Müzakirə üçün bax: Palan (1999).

8 Nitzan və Bichler müzakirəsi üçün bax bu toplunun 5-ci fəslinə.

9 Mükəmməl təhlillər üçün bax: Screpanti (1998).

10 Bu bölməni əsasən Amin və Palan hazırlayıb (ardı var).